# Elm jurnalistikanın ən yaxın dostudur




**AMEA Rəyasət Heyətində milli mətbuatın 150 illik yubileyi münasibətilə keçirilən konfransda elmlə mətbuatın tarixi dostluğu və qarşılıqlı əlaqəsi söylənən mülahizələrin ana xəttini təşkil etdi.**

Məclisi giriş sözü ilə açan AMEA-nın prezidenti akademik İsa Həbibbəyli Milli Mətbuat Günü və 150 illik yubiley münasibətilə media nümayəndələrini təbrik etdi, onlara şərəfli və məsuliyyətli işlərində uğurlar arzuladı. Ölkə elminin rəhbəri 1875-ci il iyulun 22-də "Əkinçi" qəzetinin ilk nömrəsinin nəşri ilə əsası qoyulan milli mətbuatımızın keçdiyi çətin və şərəfli yola ətraflı nəzər saldı, bu yolda milli mətbuatla milli elmin qoşa addımladığını vurğuladı.

İsa Həbibbəyli Azərbaycanda sağlam və peşəkar mətbuatın formalaşmasında, söz və mətbuat azadlığının təmin edilməsində ümummilli lider Heydər Əliyevin rolundan xüsusi olaraq danışdı. O bildirdi ki, müasir dövrdə milli mətbuatımızın inkişafı ulu öndərin davamçısı Prezident İlham Əliyevin uğurla davam etdirdiyi müstəqil dövlətin media siyasətinin mükəmməlliyi və demokratikliyi ilə bağlıdır.

AMEA rəhbəri son illərdə dövlət başçısının genişmiqyaslı fəaliyyəti çərçivəsində Azərbaycan mətbuatının öz inkişafını ən yüksək səviyyədə təmin etdiyini, Vətən müharibəsi zamanı medianın haqq səsimizin dünya ictimaiyyətinə çatdırılmasında, saxta məlumatların ifşasında xüsusi fəaliyyəti ilə seçildiyini vurğuladı. Akademik söylədi ki, Prezident İlham Əliyevin "Azərbaycan milli mətbuatının 150 illik yubileyinin keçirilməsi haqqında" 25 aprel 2025-ci il tarixli sərəncamı müstəqil mətbuatın inkişafının dövlət başçısının diqqət mərkəzində saxladığı prioritet sahələrdən olduğunu bir daha təsdiqlədi: "Azərbaycan milli mətbuatının yubileylərinin dövlət səviyyəsində qeyd edilməsi, mətbuat işçilərinin təltif edilməsi, redaksiyalara maliyyə yardımının göstərilməsi ölkə başçısının jurnalistikaya göstərdiyi qayğının parlaq göstəricisidir".

Görkəmli media nəzəriyyəçisi və tarixçisi, BDU mətbuat tarixi kafedrasının müdiri professor Cahangir Məmmədli, AMEA Ədəbiyyat İnstitutunun mətbuat tarixi və publisistika şöbəsinin müdiri professor Vüqar Əhməd, şöbənin baş elmi işçisi Gülbəniz Babayeva, AMEA Rəyasət Heyəti aparatının ictimaiyyətlə əlaqələr, mətbuat və informasiya şöbəsinin müdiri Ağahüseyn Şükürov, Gəncə Bölməsinin ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Zakir Muradov, Əməkdar jurnalist Xalid Niyazov, AMEA Ədəbiyyat İnstitutunun baş mütəxəssisi Ülkər Hüseynova, AMEA Azad Həmkarlar İttifaqının sədri Sənan Həsənov və Fəlsəfə və Sosiologiya İnstitutunun şöbə müdiri Xatirə Quliyeva çıxış edərək Azərbaycan mətbuat tarixinin zəngin irsindən danışdılar, media texnologiyalarının sürətlə inkişaf etdiyi dövrdə jurnalistikanın milli maraqları qorumaq missiyasının önəmini vurğuladılar.

Sonda Akademiyada çalışan bir qrup media işçisinə AMEA-nın təşəkkürnamə və fəxri fərmanlar təqdim olundu.

***Tahir AYDINOĞLU***
***XQ***

Xalq qəzeti .- 2025.- 22 iyul (№ 149).- S.13.